# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 267/1** **20 oktyabr 2015-ci il**

**Auditorlar Palatası tərəfindən auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrüfat fəaliyyətlərinin yoxlanılmasının dayandırılması barədə**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununun və Azərbaycan Respublikası Prezidentinin Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı tapşırıqlarının icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR**

**1.** Auditor təşkilatlarının və sərbəst auditorların maliyyə-təsərrüfat fəaliyyətlərinin yoxlanılması 2015-ci ilin 01 noyabr tarixindən 2 il müddətinə dayandırılsın.

**2.** Auditor xidməti sahəsində aparılan yoxlamaların tənzimlənməsi ilə bağlı digər məsələlər "Sahibkarlıq sahəsindəki yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası qanununun əsasında qəbul edilmiş normativ-hüquqi aktların müddəaları və "Sahibkarlıq sahəsində aparılan yoxlamarın tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu nəzərə alınmaqla, Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə, Auditorlar Palatasının həqiqi üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) üzvlük öhdəliklərinə uyğun olaraq həyata keçirilsin.

**3.** Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**